AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ

*Əlyazması hüququnda*

**FIRDOVSI DAMƏT OĞLU BAĞIROV**

# AZƏRBAYCANDA XARİCİ İNVESTİSİYALARIN FORMALAŞMASI VƏ SƏMƏRƏLİLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**İxtisas: 5301.01 – Daxili fiskal siyasət və dövlət maliyyəsi**

**iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI - 2015**

Dissertasiya işi Azərbaycan Dövlət İqtisad Universitetinin "Bank işi" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor
**Mübariz Məmmədhüseyn oğlu Bağırov**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor
**İrşad Abdul oğlu Kərimli**

iqtisad elmləri namizədi
**Firsənd Əliheydər oğlu Qurbanov**

**Aparıcı təşkilat:** Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası

Müdafiə "23" dekabr 2015-ci il tarixdə saat $14^{00}$-da Azərbaycan Dövlət İqtisad Universitetində D 02.051 dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi 6, Azərbaycan Dövlət İqtisad Universiteti D 02.051 dissertasiya şurası.

Dissertasiya işi ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq olar.

Aftoreferat "___" noyabr 2015-ci il tarixdə göndərilmişdir.

**D 02.051 dissertasiya**
**şurasının elmi katibi, i.ü.f.d.** **dosent M.M.Sadıqov**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Müstəqil iqtisadi inkişaf yolu ilə irəliləyən Azərbaycan dünya iqtisadiyyatına daha fəal inteqrasiya olmaq məqsədilə özünün milli iqtisadiyyatını formalaşdırıb inkişaf etdirmək kimi strateji vəzifənin yerinə yetirməsinə çalışır. Bunun üçün ölkənin Milli istehsal sahələrində, maliyyə, kredit, valyuta sferasında əsaslı dəyişikliklər edilməsi, sosial sferanın yenidən qurulması, xarici iqtisadi əlaqələrin, dövlətlərarası hesablaşmaların müasir tələblər səviyyəsində formalaşdırılması ön sıraya çıxarılır. Qeyd edilən əsaslı və geniş miqyaslı iqtisadi və sosial dəyişiklikləri ölkənin daxili maddi və maliyyə resurslarının imkanları ilə həyata keçirilməsinin çətinliyi ilə qarşılaşan Azərbaycan Respublikası xarici investisiyalar formasında xarici maliyyə-kredit vəsaitlərinin ölkəyə cəlb edilməsi istiqamətində məqsədyönlü fəaliyyətin konkret yollarını dəqiqləşdirdi və bu yollarla irəliləməkdədir.

Ulu öndər Heydər Əliyevin rəhbərliyi, təşkilatçılığı və bilavasitə iştirakı ilə 1994-cü ilin sentyabr ayında «Əsrin müqaviləsi»nin imzalanması ölkə iqtisadiyyatında keyfiyyətcə yeni bir inkişaf dövrünün əsasını qoydu. Neft strategiyasının uğurla reallaşdırılması nəticəsində Azərbaycana böyük həcmdə xarici investisiyaların cəlb edilməsi qısa bir müddət ərzində ölkənin real sektorunun baza sahələrinin texniki-texnoloji əsaslarını yenidən qurmaqla onların rəqabət qabiliyyətli məhsul buraxılışının artımına nail olmaq, hasilat və emal sənaye ilə bağlı sahələrarası əlaqələri inkişaf etdirməyə zəruri bazar infrastrukturunu formalaşdırmağa əlverişli şərait yaratmaqla əslində gələcək davamlı və dinamik inkişafın maliyyə-maddi zəminini yaratdı. Mütərəqqi dünya təcrübəsinə əsaslanaraq xarici investisiyaların Azərbaycana cəlb olunması, onun təşkili, idarə olunması, tənzimlənməsi problemləri əslində dövlətin iqtisadi siyasətinin prioritet və aparıcı istiqamətinə çevrilir. Hazırda ölkədə yaradılmış münbit investisiya və sahibkarlıq mühiti ölkəyə daha çox xarici investisiya cəlb edilməsinə əlverişli şərait yaradılmasını tələb edir. Bu mənada dissertasi-

yanın mövzusu çox aktualdır, mühüm nəzəri və təcrübi əhəmiyyət daşıyır.

Xarici investisiyalar digər tərəfdən Azərbaycana yeni texnologiyaların, beynəlxalq sahibkarlıq təcrübəsinin gətirilməsində, qloballaşma proseslərinə qovuşmasında, habelə geoiqtisadi məqsədlərin reallaşmasında müstəsna rol oynayır.

Bu baxımdan Azərbaycan iqtisadiyyatına xarici investisiya qoyuluşunun formalaşmasının və onun səmərəliliyinin dəyərləndirilməsinin elmi-metodoloji və təcrübi problemlərinin araşdırılması, sistemli təhlili və bu zaman meydana çıxan çətinliklərin aradan qaldırılması yolları, vasitə və mexanizmlərinin aşkara çıxarılaraq perspektiv dövr üçün onların qiymətləndirilməsi tələb olunur.

Qeyd etmək lazımdır ki, xarici investisiyalarla bağlı ən zəruri məsələlər öz əksini vacib konsepsiya və layihələrdə tapmışdır. Belə ki, "Azərbaycan 2020: Gələcəyə baxış" inkişaf konsepsiyasında ölkəmizin innovativ və davamlı inkişafa keçidin təmin olunmasında xarici investisiyaların formalaşması və bütünlükdə bu proseslərin səmərəliliyinin yüksəldilməsi zəruriliyi xüsusi vurğulanır.

**Mövzunun öyrənilmə səviyyəsi.** Xarici investisiyaların formalaşması və onların iqtisadi inkişafda rolu, mahiyyəti, nəzəri-metodoloji əsasları istər klassik iqtisadçıların əsərlərində, istərsə də Azərbaycan və keçmiş postsovet iqtisadçı alimlərinin əsərlərində tədqiq olunmuşdur. Klassik məktəbin yaradıcılarından A.Smitin, D.Rikardonun, neoklassik iqtisadçılardan A.Marşallın, C.Keynsin, C.Xiksin, N.Piqunun və başqalarının əsərlərində investisiyaların, o cümlədən xarici investisiyaların mahiyyəti, onun tətbiqinin sosial-iqtisadi nəticələri, multiplikator effekti və s. problemlər araşdırılaraq dəyərli nəticələrə gəlmişlər.

Keçmiş postsovet respublikalarında milli iqtisadiyyatın formalaşması və inkişafında investisiya prosesləri, onun mahiyyəti, tətbiqinin səmərəliliyi məsələləri Rusiyanın iqtisadçı alimlərindən R.İ.Xasbulatov, İ.P.Fominski, E.F.Andokuşin, A.Filipenko, A.R.Belonsov, B.A.Maz, L.İ.Abalkin, B.İ.Mayovski, L.Artyomov və başqalarının, o cümlədən Azərbaycanın iqtisadçı alimlərindən

Ə.C.Muradovun, Z.Ə.Səmədzadənin, M.M.Bağırovun, Z.F.Məmmədovun, M.X.Həsənlinin, R.K.İsgəndərovun, İ.A.Kərimlinin, F.Ə.Qurbanovun, D.A.Bağırovun, N.M.İmanovun, A.K.Ələsgərovun, M.A.Əhmədovun, Ü.Q.Əliyevin, T.N.Hüseynovun, F.F.Mustafayevin, R.A.Quliyevin və s. əsərlərində tədqiq olunmuşdur. Həmin tədqiqatları yüksək qiymətləndirməklə qeyd etmək istərdik ki, Azərbaycanda xarici investisiyaların formalaşması onun səmərəliliyinin qiymətləndirilməsi özünün dəqiq ifadəsini bu tədqiqat əsərində tapmışdır. Eyni zamanda milli iqtisadiyyatın davamlı inkişafının təmin edilməsində xarici investisiyaların rolunun nəzəri-metodoloji əsasları, daxili fiskal siyasət və dövlət maliyyəsi məsələləri ayrıca tədqiqat obyekti olmamışdır.

Qeyd olunanlar müasir dövrdə seçilən dissertasiya mövzusunun aktuallığını və əməli əhəmiyyəti göstərməklə mövzunun tədqiqat predmeti kimi seçilməsini şərtləndirmişdir.

**Tədqiqatın məqsədi və vəzifələri**: Dissertasiya işinin məqsədi Azərbaycanın iqtisadiyyatına xarici investisiya qoyuluşunun qanunauyğunluqlarını, xüsusiyyətlərini və səmərəliliyinin qiymətləndirilməsini ölkəmizə xarici investisiya qoyuluşunun mövcud vəziyyətini sistemli təhlil edib, dəyərləndirmək və nəticə çıxarmaqdır. Eyni zamanda xarici investisiya qoyuluşunun prioritetlərini əsaslandırmaq onun səmərəliliyinin yüksəldilməsi ilə bağlı elmi cəhətdən əsaslandırılmış və əməli cəhətdən reallaşdırılması məqsədəuyğun olan təklif və tövsiyələr irəli sürməkdən ibarətdir.

Dissertasiya işində bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

-Xarici investisiya qoyuluşlarının nəzəri-metodoloji əsaslarını tədqiq etmək, xarici investisiyaların formalaşmasının ümumi qanunauyğunluqlarını və xüsusiyyətlərini aşkara çıxarmaq;

-Azərbaycanda xarici investisiyaların tarixi aspektlərini araşdıraraq nəticə çıxarmaq;

- Xarici investisiyalardan istifadənin modellərini, dünya təcrübəsini araşdırmaq və onlardan Azərbaycanda istifadə imkanlarını müəyyən etmək;

- Xarici investisiyalardan istifadənin müasir vəziyyətini sis-

temli təhlil edib dəyərləndirmək;

- Xarici investisiyalardan istifadənin normativ-hüquqi əsaslarını təhlil etməklə onun təkminləşdirilməsinin əsas istiqamətlərini müəyyənləşdirmək;

- Azərbaycan iqtisadiyyatına birgə müəssisələrin və xarici şirkətlərin investisiya qoyuluşlarının vəziyyətini təhlil edərək dəyərləndirmək;

- Xarici investisiyalardan istifadənin səmərəliliyini qiymətləndirilmək;

-Qloballaşma şəraitində xarici investisiya qoyuluşunun tənzimlənməsinin təkmilləşdirilməsinin prioritetlərini əsaslandırmaq;

- Yaxın gələcək üçün Azərbaycana xarici investisiya qoyuluşunu proqnozlaşdırmaq.

**Tədqiqatın obyekti** – Azərbaycana xarici investisiya qoyuluşunun formalaşması və ondan  səmərəli istifadəsinin qiymətləndirilməsi sistemidir.

**Tədqiqatın predmeti** – Azərbaycana xarici investisiya qoyuluşlarının təşkili, tənzimlənməsi, təhlili və səmərəliliyinin qiymətləndirilməsi ilə əlaqədar iqtisadi subyektlər arasında formalaşan münasibətlərin məcmusudur.

**Tədqiqatın nəzəri - metodoloji əsasını** –Azərbaycan Respublikası Prezidentinin investisiya, o cümlədən xarici investisiyalara dair fərman və sərəncamları, Azərbaycan Respublikası Nazirlər Kabineti və Milli Məclis tərəfindən investisiyalara dair qəbul edilmiş qərar və qanunlar, Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye, Maliyyə, Vergilər və digər nazirliklərin investisiyalara dair normativ-hüquqi aktları, Azərbaycan və xarici ölkələrin iqtisadçı alimlərinin investisiya problemlərinə həsr olunmuş elmi əsərləri, monoqrafiyaları və digər elmi-tədqiqat işləri təşkil edir.

Tədqiqat gedişində xarici investisiya qoyuluşlarının formalaşması, onların davamlı inkişaf baxımından səmərəliliyini qiymətləndirmək və bütünlükdə bu proseslərin səmərəli reallaşdırılmasına nail olmaq məqsədilə sistemli kompleks, pozitiv-normativ, statistik, müqayisəli, təhlil, sintez, balans və digər tədqiqat

metodlarından istifadə olunmuşdur.

**Tədqiqatın informasiya bazası:** Dissertasiyanın məqsəd və vəzifələrinə uyğun olaraq tədqiqat aparılarkən Azərbaycan Dövlət Statistika Komitəsinin illik məcmuələri, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin, Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye, habelə digər sahə nazirliklərinin statistik materiallarından, Beynəlxalq Valyuta Fondu və investisiya qoyuluşlarını həyata keçirən şirkət və agentliklərin məlumatlarından və s. istifadə olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:**

- Xarici investisiya qoyuluşlarının formalaşmasının nəzəri və konseptual əsasları sistemləşdirilərək ümumiləşdirilmiş, nəticələr çıxarılmış və formalaşmanın əsasları ilə bağlı müddəalar irəli sürülmüşdür;
- Xarici investisiyalardan istifadənin səmərəliliyi metodoloji aspektdən araşdırılaraq, onun yüksəldilməsi ilə bağlı konkret təkliflər verilmişdir;
- Azərbaycanda xarici investisiyaların tarixi aspektləri öyrənilmiş, xüsusiyyətləri aşkara çıxarılmış, ümumi qanunauyğunluqlar və inkişaf meyilləri əsaslandırılmışdır.
- Xarici investisiyalardan istifadənin dünya təcrübəsindən Azərbaycanda istifadə imkanları qiymətləndirilmiş, ümumən, xarici investisiya qoyuluşunun Azərbaycan modelinin xarakterik cəhətləri dəyələndirilmişdir;
- Xarici investisiyalardan istifadənin normativ- hüquqi və qanunverici bazası sistemli təhlil edilmiş, dəyərləndirilmiş və onun təkmilləşdirilməsi ilə bağlı konkret təklif və tövsiyələr verilmişdir;
- Xarici investisiya qoyuluşlarının müasir vəziyyəti, iqtisadi göstəricilər əsasında sistemli və müqayisəli şəkildə təhlil olunmuş, qiymətləndirilmiş və bütünlükdə perspektiv dövr üçün Azərbaycan iqtisadiyyatına xarici investisiya qoyuluşlarının səmərəliliyinin yüksəldilməsi ilə bağlı təkliflər irəli sürülmüşdür.
- Xarici investisiyalardan istifadənin səmərəliliyi ilə bağlı Azərbaycan iqtisadiyyatında müşahidə olunan müsbət meyillər də-

yərləndirilmiş və bütünlükdə xarici investisiya potensialı nəzərə alınaraq ondan səmərəli istifadə istiqamətində irəli sürülən təkliflər əsaslandırılmış və prioritet istiqamətlər müəyyənləşdirilmişdir;

- Azərbaycan iqtisadiyyatına xarici investisiya qoyuluşlarının səmərəliliyinin yüksəldilməsinin əsas istiqamətləri müəyyənləşdirilmiş və yaxın gələcək üçün proqnozlar işlənib hazırlanmışdır.

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti:** Tədqiqat işində sistemləşdirilən nəzəri-konseptual müddəalar, irəli sürülən konkret təkliflər və tövsiyələr Azərbaycanda xarici investisiyaların prioritet istiqamətlərinin müəyyənləşdirilməsində təcrübi cəhətdən səmərəli reallaşdırılmasını təmin etmək üçün müvafiq funksional, məqsədli proqram və proqnozların işlənib hazırlanmasında, konkret istiqamətlər üzrə dövlətin iqtisadi siyasətinin təkminləşdirilməsi prosesində istifadə oluna bilər.

Habelə, tədqiqatda edilən ümumiləşdirmələr, irəli sürülən təkliflər təhsil müəssisələrində tədris olunan «Beynəlxalq investisiyalar», «İnvestisiyaların maliyyələşdirilməsi və kreditləşdirilməsi» fənlərinin tədrisində, həmçinin müxtəlif sahələr üçün iqtisadçı kadrların hazırlanması prosesində istifadə oluna bilər.

**Tədqiqatın nəticələrinin tətbiqi** – Dissertasiyanın nəticələri və əsas nəzəri müddəaları 2010-2014-cü illər ərzində beynəlxalq və respublika miqyaslı konfrans, simpozium, seminarlarda məruzə olunmuş və müzakirə edilmişdir.

**Tədqiqat nəticəsində dərc edilmiş materiallar:** Tədqiqat nəticəsində dissertasiya işi üzrə ümumi həcmi 6,1 çap vərəqi olmaqla 10 adda elmi məqalə və tezislər çap olunmuşdur.

**Tədqiqat işinin həcmi və quruşluşu:** Dissertasiya işi giriş, üç fəsil, nəticə və ədəbiyyat siyahısından ibarət olmaqla 1,5 intervallı kompyuter yazısında 142 səhifəni əhatə etməklə 18 cədvəl, 3 şəkil, 2 sxemi özündə birləşdirir. Ədəbiyyat siyahısı 148 mənbədən ibarətdir.

## Tədqiqatın strukturu aşağıdakı kimidir

**GİRİŞ**

**Fəsil 1. Xarici investisiyaların formalaşmasının konseptual əsasları**

**1.1.**İnvestisiyaların mahiyyəti və tədqiqinin nəzəri-metodoloji əsasları.

**1.2.**Azərbaycanda xarici investisiyalardan istifadənin tarixi aspektləri.

**1.3.**Xarici investisiyalardan istifadənin dünya təcrübəsi və ondan Azərbaycanda istifadə imkanları.

**Fəsil 2. Xarici investisiyalardan istifadənin müasir vəziyyəti və onun səmərəliliyinin qiymətləndirilməsi**

**2.1.**Xarici investisiya qoyuluşlarının müasir vəziyyətinin təhlili və dəyərləndirilməsi.

**2.2.**Xarici investisiyalardan istifadənin səmərəliliyinin qiymətləndirilməsi.

**2.3.**Xarici investisiyalardan istifadənin normativ- hüquqi əsasları.

**Fəsil 3. Xarici investisiyalardan istifadənin prioritet istiqamətləri və onun proqnozlaşdırılması.**

**3.1.**Xarici investisiyalardan səmərəli istifadənin prioritetləri.

**3.2.**Xarici investisiya qoyuluşlarının tənzimlənməsinin təkminləşdirilməsinin əsas istiqamətləri və proqnozlaşdırılması.

**Nəticə**

**Ədəbiyyat**

## Dissertasiya işinin əsas məzmunu

**1. İnvestisiyaların nəzəri əsaslarının tədqiqi və idarə olunması xüsusiyyətləri.**

XX əsrin ikinci yarısından geniş müşahidə olunmağa başlayan inteqrasiya prosesləri ölkələrarası iqtisadi münasibətlərə yeni xarakter verdi və bu proseslərin dərinləşməsi qloballaşan dünya iqtisadiyyatının xarakterik cəhətlərindən birinə çevrildi. Ölkələrarası iqtisadi-maliyyə münasibətlərinin dərinləşməsi həm qlobal, həm də milli iqtisadi maraqlar, eyni zamanda beynəlxalq iqtisadiyyatda mövcud olan ixtisaslaşma, dəyişən iqtisadi konyunktura ilə baş verən proseslərlə bağlı olmuşdur. Xarici iqtisadi əlaqələrin həm üfüqi, həm də şaquli istiqamətdə böyüməsi dünya iqtisadiyyatının ötən əsrin ikinci yarısında malik olduğu xarakterık cəhətlərdən biri olmuşdur.

Azərbaycan müstəqilik qazandıqdan sonra ölkənin dərin iqtisadi böhrandan çıxması, iqtisadi dinamikanın sabitləşməsi və gələcək inkişafının təmin edilməsi zərurəti külli miqdarda investisiya qoyuluşları tələb edirdi. Aydındır ki, həmin illərdə Azərbaycan belə maliyyə və investisiya resurslarına malik deyildi. Bu baxımdan büdcədə yaranan gərgin vəziyyət ölkə daxilində dövriyyəyə cəlb edilməsi mümkün olan kifayət dərəcədə maliyyə investisiya resurslarının olmaması Azərbaycanı ölkəyə xaricdən investisiya cəlb edilməsini obyektiv zəruriyyətə çevirdi. Məlumdur ki, Azərbaycan SSRİ-nin tərkibində olarkən yeni istehsal güclərinin yaradılması, texniki-texnoloji cəhətdən yenidən silahlanması mərkəzləşdirilmiş qaydada ayrılan kapital qoyuluşları hesabına reallaşdırılırdı. Keçid dövrünün ilkin mərhələsində Azərbaycan daxili maliyyə və investisiya resurslarına olan tələbatını ancaq öz hesabına ödəyə bilməzdi. Ona görə də böhrandan çıxmağın, iqtisadi sabitləşmənin və inkişafın təmin olunmasının yeganə yolu ölkəyə mümkün qədər daha çox xarici investisiyaların cəlb edilməsi ilə mümkün idi.

Yeni müstəqillik əldə etmiş ölkələrdə xarici investisiya cəlb etmək üçün hər şeydən əvvəl onun hüquqi bazasının yaradılması

zəruridir. Bu məqsədə digər hüquqi baza ilə yanaşı investisiya fəaliyyəti haqqında və xarici sərmayələrin qorunması haqqında qanunlar ölkəyə xarici sərmayənin cəlb olunmasında müstəsna rol oynamışdır.

Ümumən, xarici investisiya qoyuluşu anlayışı çox mürəkkəb, çoxcəhətli və bəzən də sosial-iqtisadi nəticələrinin birmənalı qiymətləndirilməsi çətin olan iqtisadi kateqoriyadır. Mövcud iqtisadi ədəbiyyatda xarici investisiya qoyuluşu anlayışı tədqiq olunarkən daha çox ağırlıq mərkəzi investisiya anlayışı şərh edilir. Biz burada xarici investisiya anlayışını geniş şərh etməyə ehtiyac duymuruq, çünki bütün tədqiqat boyu xarici investisiya qoyuluşunun iqtisadi inkişafdakı rolu, funksiyaları, prioritetləri araşdırılaraq dəyərləndiriləcəkdir. O da məlumdur ki, investisiya anlayışını bütünlükdə tam dərk etmədən xarici investisiya qoyuluşu anlayışını da tam şərh etmək mümkün deyil.

İqtisadi ədəbiyyatlarda çox zaman " İnvestisiya" və "kapital qoyuluşları" terminlərini eyniləşdirirlər. Lakin bu iki termin arasında iqtisadi mahiyyətinə görə fərqlər vardır. Düzdür, hər iki iqtisadi terminin oxşar cəhətləri də vardır. Lakin onların icra etdiyi məqsədlərin formalarında fərqli cəhətlər meydana çıxır ki, onları təhlilə cəlb etməklə dəqiqləşmələr aparmaq zəruridir.

Dünya iqtisadi ədəbiyyatında və müxtəlif iqtisadi ensiklopediyalarda investisiya anlayışı fərqli izah edilir. Misal üçün, «İnvestisiya – kapitalın ölkə daxilində və xaricində uzunmüddətli qoyuluşudur», «İnvestisiyalaşdırma – kapitalın formalaşdırılması və gələcəkdə gözlənilən artan tələbatın xeyrinə, gəlirlərdən cari tələbatın ödənilməsi üçün imtina edilməsidir», «İnvestisiya – təsərrüfat fəaliyyətinə istiqamətləndirilən əmanətdir; kapitala qoyluşdur» «İnvestisiya - kapitalın yerləşdirilməsi yoludur, hansı ki, onun saxlanmasını və ya dəyərinin artımını təmin edir və müəyyən həcmdə gəlir gətirir», «İnvestisiya - mənfəət və (və ya) digər müsbət effektə nail olmaq məqsədilə sahibkarlıq və (və ya) digər fəaliyyət obyektlərinə qoyulan pul vəsaiti, qiymətli kağızlar, digər mülkiyyət, o cümlədən mülkiyyət hüququ, digər hüquqlar, maddi qiymətlilərdir», «Xarici investisiya – ölkə ərazisində

sahibkarlıq fəaliyyətinə xarici investorlara məxsus mülkü hüquq, o cümlədən pul, qiymətli kağız, digər mülkiyyət, mülkiyyət hüququ, maddi qiymətlilər, intellektual fəaliyyət nəticəsinə hüququ, həmçinin xidmət və informasiya formasında qoyulan xarici kapitaldır»

**2. Xarici investisiyalardan istifadənin Azərbaycan modelinin formalaşması.**

XX əsrin 90-cı illərinin əvvəllərində SSRİ-nin dağılması, onun ardınca dünya iqtisadiyyatında baş verən maliyyə böhranları dünya iqtisadi sisteminin fəaliyyət mexanizmində ciddi problemlər yaratdı. Ölkələrarası münasibətlər, həmçinin iqtisadi subyektlər arasında hesablaşmalar zamanı gərginliklər səmərəli qarşılıqlı hesablaşmaların aparmağa imkan vermirdi ki, bu da öz növbəsində mövcud iqtisadi mexanizmin dəyişən şəraitdə uyğunlaşdırılmasını tələb edirdi. Artıq qeyd olunduğu kimi ölkə iqtisadiyyatını dirçəltmək xarici investisiyalar olmadan qeyri-mümkün idi.

Azərbaycan müstəqillik qazandıqdan sonra ölkəyə xarici kapital axını «Əsrin müqaviləsi» ilə başlamış oldu. Ölkə Prezidenti İlham Əliyev «Əsrin müqaviləsi» nə yüksək qiymət verərək onu belə qiymətləndirirdi: «Bizim bugünkü inkişafımız, bugünkü nailiyyətlərimiz, Azərbaycanın həqiqətən müstəqil ölkə kimi dünya birliyinə qədəm qoyması böyük dərəcədə «Əsrin müqaviləsi»nin imzalanması ilə bağlıdır. Bu, çox cəsarətli və müdrik addım idi. Ulu öndər Heydər Əliyev tərəfindən atılan bu addım Azərbaycan xalqının rifah halının yaxşılaşmasına, Azərbaycanın hərtərəfli inkişafına xidmət edir.

Ölkə iqtisadiyyatında qarşıda duran ən mühüm məsələlərdən biri dağılmış iqtisadiyyatı yenidən düzəltmək və onu normal inkişaf tempinə salmaq idi. Həmin dövrdə ölkə iqtisadiyyatını normal inkişafa gtirib çıxara biləcək əsas sahə neft sənayesi idi. Heydər Əliyev bu çıxış yolunu aydın görərək bu sahədə ilk uğurlu addımlarını atdı. O, 1994-cü ilin fevralın 4-də «Azərbaycanda dəniz neft və qaz yataqlarının işlənilməsinin sürətlənməsi haqqında» xüsusi sərəncam verdi. Həmin sərəncam dünyanın aparıcı

neft və qaz şirkətləri ilə həyata keçirilən danışıqların əsasını təşkil etdi. Xarici şirkətlərlə danışıqlar heç də asan şəraitdə getmirdi. Cəbhə bölgəsindəki gərginlik, dövlət idarəetmə mexanizmlərinin hələ tam formalaşmaması, qonşu dövlətlərlə münasibətlərdə ciddi siyasi gərginliyin olması, Xəzərin statusu ilə bağlı xeyli qeyri-müəyyənliyin olması bir çoxlarında respublikanın gələcəyi barədə şübhələr yaradırdı. Lakin Heydər Əliyev gərgin əmək və qətiyyət göstərərək tutduğu yolun düzgün və haqq yolu olduğunu göstərdi. Onun rəhbərliyi altında 1994-cü ilin sentyabrın 20-də Bakıda dünyanın aparıcı transmilli neft şirkətlərinin iştirakı ilə «Əsrin müqaviləsi» imzalandı. Müqaviləyə görə Azərbaycan neft sənayesinə 8 mlrd. ABŞ dolları məbləğində xarici investisiya qoyuluşu nəzərdə tutulurdu. Bu layihə 30 il ərzində Xəzər dənizinin Azərbaycan hissəsindən 510 mln ton neft çıxarılmasına ilk investisiya qoyuluşu idi. Nəticədə, Azərbaycan MDB məkanında Qərbin iri neft şirkətləri ilə böyük miqyasda saziş imzalayan ilk dövlət olaraq özünün neft strategiyasını irəli sürmüş oldu. Bu strategiyanın əsas məqsəd və mahiyyəti, prinsipləri ölkənin təbii sərvətlərindən, neft və qaz yataqlarından Azərbaycan xalqının rifahı naminə istifadə etməkdən ibarət idi.

«Əsrin müqaviləsi» Bakını dünyanın neft mərkəzlərindən birinə çevirdi. Bu müqavilə əsasında ölkəyə daxil olan vəsaitlərin düzgün və səmərəli xərclənməsi üçün Dövlət Neft fondu yaradıldı. «Əsrin müqaviləsi» başlanan dövrdə Azərbaycanın valyuta ehtiyatları yox idi, lakin hal-hazırda onun miqdarı 50 milyard ABŞ dollarından artıqdır.

Respublikamızda xarici investisiyalardan istifadənin xüsusi bir modeli formalaşmışdır ki, bu da daha çox ölkənin iqtisadi siyasətinin prioritetlərindən, aparılan investisiya siyasətinin məqsədlərindən, ölkədə aparılan makro- və mikrosiyasətin elementlərindən asılı olaraq reallaşmışdır. Ölkədə aparılan investisiya siyasətinint məqsədlərinə uyğun olaraq investisiya prosesinin inkişafına dövlət təsirinin gücləndirilməsi məqsədilə investisiya layihələrinə dövlət zəmanətlərinin verilməsi nəzərdə tutulmuşdur. Belə ki, 1997-ci ildən başlayaraq dövlət zəmanətləri üzrə

xərclər «Dövlət borcuna xidmət edilməsi» bölməsində öz əksini tapmışdır. Azərbaycanda etibarlı investisiya mühitinin yaradılmasında əsas amil xarici investorlar üçün əlverişli fəaliyyət şəraitinin olmasıdır. Ölkə iqtisadiyyatına böyük investisiya axınının ilkin səbəbi onlar üçün lazımi şəraitin yaradılması, son səbəbi isə onların bu əməliyyatlardan xeyli mənfəət əldə etməsidir.

90-cı illərin ortalarından başlamış Azərbaycana xarici investisiyaların cəlb edilməsi sahəsində müsbət meyillər yaranmışdır ki, bu da son nəticədə bu sahədə keyfiyyət dəyişikliklərinin yaranmasına gətirib çıxarmışdır. Respublikada ümumi investisiya qoyuluşlarının həm xarici, həm də daxili investisiya fəaliyyətinin zəruri hüquqi bazasının yaradılması təcrübəsi öyrənilərək onun üstün elementləri tətbiq olunmaqla, bazar modellərinin tətbiqi əsas tutularaq investisiya mühiti formalaşdırılmışdır. Bunun nəticəsində də ölkədə ötən əsrin sonlarında  investisiya sıçrayışı baş vermişdir ki, bu da investisiyanın həcmindən asılı olaraq xüsusi nəzərəçarpan vəziyyətlərdən biridir.

Məhz Azərbaycanda xarici investisiyalardan istifadənin xüsusi formalaşmış modelinin spesifik xüsusiyyətlərindən biri onun investisiya sıçrayışı fonunda formalaşmasıdır. Bu spesifikliyin daha bir vacib elementi Azərbaycanın qısa bir müddət ərzində beynəlxalq aləmdə etibarlı tərəfdaşa çevrilməsidir. «İnkişafın Azərbaycan modeli» adlı kitabında akademik Ramiz Mehdiyev yazırdı: «Neft-qaz sektorunda həyata keçirilən layihələr və Azərbaycanın diversifikasiya siyasəti onun geostrateji əhəmiyyətini artırmış, dünya birliyinin etibarlı tərəfdaşı olduğunu sübut etmişdir.

Aparılan təhlil və tədqiqatlar göstərir ki, Azərbaycanda dövlətin investisiya siyasətinin əsas məqsədi elmi-texniki nailiyyətlərin tətbiqi hesabına əsas fondların yenilənməsinin, kadr hazırlığının və istehsalın strateji sahələrinin tamamilə yenidən qurulmasının həyata keçirilməsi olmuşdur.

Respublikada aparılan investisiya siyasətinin aşağıdakı mühüm istiqamətlərini göstərmək olar:

- rəqabət qabiliyyətli investisiya resursları bazarını təşkil etmək;

-investisiyaları daha çox iqtisadiyyatın prioritet sahələrinin inkişafına yönəltmək;

-xarici investisiyalar hesabına iqtisadiyyatın strateji sahələrinin dinamik iinkişafını təmin etmək;

-mərkəzləşdirilmiş qaydada maliyyələşdirməni məhdudlaşdırmaqla, investisiyalardan əsasən ümumdövlət obyektlərinin maliyyələşdirilməsində istifadə etmək;

-özəl sektorun, fərdi sahibkarların investisiya imkanlarının genişlənməsinə əlverişli şərait yaratmaq;

-mənzil tikintisi və həmçinin digər sosial təyinatlı layihələrin icra olunması üçün əhalidən vəsaitəlrin toplanmasını genişləndirmək və həmin vəsaitlərdən səmərəli istifadə etmək;

-investisiya sığortası üzrə təkmil sistemin yaradılması və onun daimi təkmilləşdirilməsi;

-artıq investisiya layihələrinin (dövlət, korporativ, fərdi biznes) genişləndirilməsi;

-xarici, sərfəli mənbələrdən optimal variantlarla maksimum dərəcədə investisiyalar cəlb etmək;

-investisiyanın strukturunda xarici investisiyaya nisbətən daxili investisiyanın artımını stimullaşdırmaq;

-investisiya tsiklinin qısaldılmasını təmin etmək.

Xarici investisiyalardan istifadənin Azərbaycan modelinin spesifik xüsusiyyətlərindən biri də ondan ibarətdir ki, ölkəmizdə xarici və daxili investisiya resurslarının səfərbər edilməsi və onlardan səmərəli istifadə olunması üçün milli proqram işlənib hazırlanmış və uğurla həyata keçirilməkdədir. Bu proqramda xarici və daxili investisiyaların cəlb edilməsinin prinsip, qayda və mexanizmləri öz əksini tapmış, paralel olaraq investisiyanın prioritet istiqamətləri üzrə əməkdaşlıq və səmərəlilik formaları göstərilmişdir.

## 3.Xarici investisiya qoyuluşlarının iqtisadi inkişafa təsirinin təhlili.

Tədqiqatın əsas məqsədlərindən biri Azərbaycan Respublikasının iqtisadiyyatına xarici investisiya qoyuluşlarının müasir

vəziyyətinin təhlil olunmasıdır.

Aparılan təhlillər göstərir ki, Azərbaycana qoyulmuş xarici investisiyalar hesabına ölkədə neft, qaz, energetika, metallurgiya, maşınqayırma, yeyinti sənayesi, kənd təsərrüfatı və digər sahələr geniş inkişaf etdirilmiş və 2020-ci il üçün Azərbaycan bu sahələrin göstərişlərinə görə inkişaf etmiş ölkələrlə bir sırada duracaqdır.

Azərbaycan Respublikasına cəlb olunmuş xarici investisiya qoyuluşlarının, onların sahələr üzrə məqsədli istifadə olunmasının və s. parametrlərinin təhlil olunması üçün aşağıdakı təhlilləri aparaq (cədvəl 1).

Cədvəldən göründüyü kimi 1995-ci ildən başlayaraq 2014-cü il daxil olmaqla, hər il xarici investisiya qoyuluşlarında dinamika mövcud olmuşdur. Cədvəldə əks etdirilən son 4 ili təhlil etsək görərik ki, hər il artım olmuşdur.

Təhlillər göstərir ki, 2011-ci il ərzində Azərbaycan iqtisadiyyatına xarici investisiya qoyuluşlarının məbləği 8673,9 mln.dollar olmuşdur ki, bu da son beş ilin orta göstəricisinə nisbətən 34,3% təşkil etmişdir. 2012-ci ildə də dinamika artım istiqamətində müşahidə olunmuşdur. Həmin ildə cəmi investisiya qoyuluşları 10314,0 mln dollar təşkil etmiş, əvvəlki ilə nisbətdə artım 118,9% olmuşdur. 2013-cü ildə cəmi investisiya qoyuluşları 10540,9 mln dollar təşkil etmiş, əvvəlki ilə nisbətdə artım 102,2% olmuşdur. Təhlilə cəlb edilən sonuncu 2014-cü ldə cəmi investisiya qoyuluşları 11697,7 mln dollar təşkil etmiş, əvvəlki ilə nisbətdə artım 110,9% olmuşdur.

Diqqətəlayiq haldır ki, təhlil aparılan son 4 il ərzində ölkədə daxili investisiyalar daha geniş vüsət aldığı halda xarici investisiya qoyuluşlarında da daimi olaraq artımlar müşahidə olunmuşdur. Bu, xarici investorların Azərbaycana olan etibarından irəli gəlir. Onlar Azərbaycana etibarlı investisiya tərəfdaşı kimi baxır və böyük həvəslə əməkdaşlıq edirlər.

Cədvəl 1

## Xarici investisiyaların dinamikası (mln ABŞ $)

| | **1995-2000-ci illərdə orta illik göstərici** | **2001-2005-ci illərdə orta illik göstərici** | **2006-2010-cu illərdə orta illik göstərici** | **2011** | **2012** | **2013** | **2014** | **Yekunu** |
|---|---|---|---|---|---|---|---|---|
| **Cəmi xarici investisiya** | **640,9** | **3233,1** | **6458,2** | **8673,9** | **10314,0** | **10540,9** | **11697,7** | **95476,8** |
| O cümlədən: | | | | | | | | |
| Maliyyə kreditləri | 194,9 | 328,94 | 1952,44 | 3692,5 | 3135,5 | 2655,8 | 1880,6 | 24008,6 |
| Neft sənayesi | 367,3 | 2729,44 | 3228,86 | 3407,8 | 4287,8 | 4935,2 | 6730,7 | 52471,4 |
| Neft bonusu | - | 27,0 | 18,34 | 19,9 | 2,0 | 2,4 | 17,0 | 214,2 |
| **Birgə müəssisələr və xarici şirkətlər** | 78,5 | 101,0 | 517,12 | 886,0 | 1094,5 | 1041,0 | 1318,5 | 8667,9 |
| O cümlədən: | | | | | | | | |
| Türkiyə | 27,9 | 44,48 | 106,18 | 89,1 | 185,9 | 401,3 | 481,4 | 2352,4 |
| Niderland | - | 0,24 | 147,06 | 173,3 | 186,0 | 141,6 | 103,8 | 841,2 |
| ABŞ | 182,0 | 11,94 | 78,29 | 73,8 | 92,5 | 24,4 | 89,3 | 992,9 |
| İran | 1,6 | 0,78 | 6,42 | 11,2 | - | - | 40,5 | 145,0 |
| Almaniya | 2,3 | 5,3 | 28,86 | 32,5 | 45,6 | 15,1 | 51,0 | 346,4 |
| Rusiya | 1,0 | 10,2 | 16,62 | 35,0 | 21,8 | 36,1 | 13,6 | 218,6 |
| Böyük Britaniya | 2,5 | 15,36 | 146,4 | 113,9 | 149,3 | 136,0 | 153,5 | 1382,0 |
| BƏƏ | 1,7 | 3,08 | 38,5 | 28,52 | 92,4 | 109,3 | 90,2 | 562,6 |
| İsveçrə | 1,7 | 1,76 | 7,52 | 26,7 | 79,4 | 18,2 | 19,3 | 204,6 |
| İtaliya | 0,16 | - | 7,78 | - | 22,1 | 21,3 | 21,2 | 110,1 |
| Fransa | 13.1 | 3,38 | 5,24 | 14,3 | 14,4 | 6,1 | 7,2 | 149,8 |
| Yaponiya | 5.4 | 0,8 | 0,92 | 2,5 | 5,4 | 3,0 | 2,9 | 38,8 |
| Sair ölkələr | 2,7 | 10,92 | 65,22 | 203,5 | 199,7 | 128,6 | 244,6 | 1323,5 |
| **Digər investisiyalar** | **-** | **57,66** | **741,42** | **667,7** | **1794,2** | **1906,5** | **1750,9** | **10114,7** |

***Mənbə:*** *Cədvəl Azərbaycan Respublikası Statistika Komitəsinin illik hesabatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Belə ki, xarici investisiya qoyuluşlarının struktur etibarilə tərkib hissələrinin təhlili daha real nəticələr əldə etməyə imkan verir. Yəni maliyyə kreditləri üzrə neft sənayesinə yönəldilən investisiyaların məbləği 2006-2010-cu illərdə orta hesabla 1952,44 mln dollar təşkil etmişdir. Əvvəlki dövrlə müqayisədə artım müşahidə olunsa da 2012-ci ildən başlayaraq azalma müşahidə olunmuşdur. Belə ki, 2012-ci ildə əvvəlki il ilə müqayisədə 15,1%, 2013-cü ildə 2012-ci il ilə müqayisədə 15,3%, 2014-cü ildə 2013-cü il ilə müqayisədə 29,1% azalma olmuşdur. Real mənzərə belədir ki, maliyyə kreditləri ilə xarici investisiya qoyuluşları azalmağa doğru meyl etsə də neft sənayesinə xarici investisiya qoyuluşları isə təhlil olunan illər üzrə artmağa doğru meyl etmişdir.

Xarici nvestisiyaların strukturuna aid olan digər qrup investtisiyalar birgə müəssisələr və xarici şirkətlərin ölkə iqtisadiyyatına qoyduğu investisiyalardır. Bu investisiyalar ümumi xarici investisiyaların 10,23%-ni təşkil edir və son 4 il ərzində ümumi məbləğcə 5624,0 mln dollar olmaq etibarilə, 2013-cü il istisna olmaqla, bütün illər ərzində artımla müşahidə olunan dinamikaya malik olmuşdur. Bu göstərici xarici ölkələrin birgə müəssisələrinin və xarici şrkətlərin Azərbaycana olan, onun iqtisadiyyatına olan etibar və inamının nəticəsidir.

Təhlil aparılan sonuncu 2014-cü ildə yenidən artım müşahidə olunmuşdur. Həmin ildə təhlili aparılan qrup üzrə investisiya qoyuluşlarının ümumi məbləği 1318,5 mln dollar olmuş, əvvəlki ilə nisbətən 126,6% artım olmuşdur.

İnvestisiya qoyuluşlarının strukturunda xüsusi çəki etibarilə sonuncu yeri neft bonusu tutur. Bu qrup üzrə göstəricilər həddən artıq az olduğunu və neft bonuslarının konkret vaxtlarda ödənildiyini nəzərə alaraq onun dinamikasını təhlil etməyə ehtiyac yoxdur.

Aparılan təhlillər göstərir ki, son 4 il ərzində Azərbaycan iqtisadiyyatına xarici investisiya qoyuluşu artımla müşahidə olunan dinamikaya malik olmuş, onun strukturunda əvvəlki illərdən formalaşan meyillər demək olar ki, dəyişməmişdir. Həm ümumi dinamikanın mövcud olması, həm də strukturda ciddi dəyişikliyin

baş verməməsi ölkə iqtisadiyyatında sabit inkişafın olduğunu və xarici investorların ölkəmizə yüksək marağının dəyişməzliyini göstərir.

**4.Xarici investisiyalardan istifadənin səmərəliliyinin iqtisadi dinamikaya təsiri**.

Bu və ya digər investisiya layihəsinin hansı ölkədə reallaşdırılmasından asılı olmayaraq o səmərəlilik baxımından yoxlanılır və qiymətləndirilir. Qiymətləndirmə üçün istifadə edilən ölçü və meyarlar həm təcrübi, həm də metodoloji baxımdan fərqlidirlər.

İqtisadi ədəbiyyatlarda formalaşan mövqelərə əsasən metodoloji baxımdan investisiya layihələrini aşağıdakı səmərəlik göstəriciləri əsasında qiymətləndirirlər: 1) büdcə səmərəliliyi; 2)iqtisadi səmərəllik; 3) kommersiya (maliyyə) səmərəliliyi.

**İnvestisiiya layihəsinin büdcə səmərəliliyi** dedikdə layihənin müvafiq büdcələrin gəlir və xərclərinə təsir nəticəsi başa düşülür. Büdcə səmərəliliyi göstəricisi olaraq müvafiq büdcədə büdcə səmərəsi anlayışından istifadə edilir. Büdcə səmərəsi o deməkdir ki, layihə həyata keçirildikdə onun nəticəsində əldə edilən vəsait həmin layihənin həyata keçirilməsi üçün çəkilən xərcləri üstələsin.

**İnvestisiya layihəsinin iqtisadi səmərəliliyi** dedikdə layihənin həyata keçirilməsi ilə əlaqədar iştirakçıların birbaşa maliyyə maraqlarında nəzərdə tutulan ölçülərdən kənara çıxan və dəyər dəyişikliklərini nəzərdə tutan əlavə məsrəfləri başa düşülür. Belə məsrəflər iştirakçılar tərəfindən həyata keçirilir. Onlara ilkin (kapitalyaratma investisiyaları), cari və ləğvetmə məsrəfləri ayırd edilir.

**İnvestisiya layihələrinin kommersiya səmərəliliyi** dedikdə, gələcəkdə layihənin reallaşmasından sonra təmin ediləcək gəlirlilik norması ilə maliyyə məsrəfləri arasında olan müqayisəli fərq başa düşülür. İnvestisiya layihəsinin kommersiya səmərəliliyi iqtisadi ədəbiyyatlarda formalaşan mövqeyə əsasən həm bütövlükdə layihə üzrə, həm də onun ayrı-ayrı bölmələri üzrə aparılır. Təhlillər göstərir ki, bir qayda olaraq investisiya layihələrinin kommersiya səmərəliliyinin əlavə qiymətləndirilməsi də həyata keçirilir. Bu layihə üzrə borcların tam və vaxtında ödə-

nilməsi kimi qiymətləndirilir. Bu o deməkdir ki, investisiya layihəsi kredit müəssisəsi üçün o zaman səmərəli hesab edilir ki, bu layihə çərçivəsində risklər nəzərə alınmaqla alınmış kreditlər vaxtında və tam şəkildə ödənilmiş olsun.

Respublikamızda xarici investisiyalardan istifadənin səmərəliliyinin qiymətləndirilməsi üçün çoxsaylı göstəricilər təhlil olunmalıdır. Onlardan biri də əsas kapitala yönəldilən daxili və xarici investisiyaların dinamikasıdır (cədvəl 2.).

Əsas kapitala yönəldilmş daxili və xarici investisiyaların dinamikasını nəzərdən keçirərkən görürük ki, 1995-ci ildən başlamış 2014-cü il də daxil olmaqla qeyd edilən istiqamətə 123909 milyon manat vəsait yönəldilmişdir.

Cədvəl 2

**1995-2014-cü illərdə əsas kapitala yönəldilmiş daxili və xarici investisiyaların dinamikası**

| İllər | Cəmi milyon manat | O cümlədən: | | | |
|---|---|---|---|---|---|
| | | Daxili investisiya | | Xarici investisiya | |
| | | Milyon manat | Ümumi həcmdə xüsusi çəkisi %-lə | Milyon manat | Ümumi həcmdə xüsusi çəkisi %-lə |
| **1995** | 228,0 | 149,3 | 65,5 | 78,7 | 34,5 |
| **2000** | 967,8 | 460,3 | 47,6 | 507,5 | 52,4 |
| **2005** | 5769,9 | 2104,9 | 36,5 | 3665,0 | 63,5 |
| **2010** | 9905,7 | 7499,2 | 75,7 | 2406,5 | 24,3 |
| **2011** | 12799,1 | 10199,0 | 79,7 | 2600,1 | 20,3 |
| **2012** | 15407,3 | 12148,4 | 78,8 | 3258, 9 | 21,2 |
| **2013** | 17850,8 | 13178,9 | 73,8 | 4671,9 | 26,2 |
| **2014** | 17618,6 | 12715,0 | 72,2 | 4903,6 | 27,8 |

***Mənbə:** Cədvəl Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

2 saylı cədvəl məlumatları üzrə aparılan təhlillər göstərir ki, 1995-2014-cü illər ərzində əsas kapitala yönəldilmiş ümumi investisiyaların həcmi artsa da, onun tərkibində xarici investisiyaların həcmi azalaraq 33% təşkil etmişdir.

Təhlil və tədqiqatların mühüm elementi kimi qeyd etmək olar ki, müasir şəraitdə Azərbaycan Respublikasının iqtisadiyyatına cəlb edilən xarici investisiyaların səmərəli istifadə olunması xüsusi əhəmiyyətli məsələlərdən biridir. Qeyd edilən amili ölkə iqtisadiyyatının bütün sahələrinin davamlı və sabit fəaliyyət göstərməsi, təsərrüfat subyektlərinin genişləndirilməsi, proqnozlaşdırılan səmərəlilik nəticələrinə nail olunması, maliyyə təhlükəsizliyinin təmin edilməsi, intellektual səviyyənin yüksəldilməsini təmin edən bir amil kimi çıxış edir.

İnvestisiya mühitinin genişləndirilməsi onun iqtisadiyyatın müxtəlif sahələrinə qoyulmasının təmin edilməsi nəticəsində sabit, tarazlaşdırılmış inkişafa nail olunması və cəmiyyətin qarşısına çıxan problemlərin həll edilməsi vacib, zəruri məsələ kimi ortaya çıxmışdır. İnvestisiya qoyuluşları hesabına ölkədə həyata keçirilən infrastruktur və sosial layihələrin təhlil edilməsi investisiyalardan istifadənin səmərəliliyinin qiymətləndirilməsi istiqamətində atılmış bir addım olardı.

İnfrastruktur layihələrə və sosial yönümlü layihələrə investisiya qoyuluşlarının həyata keçirilməsi qeyri-neft sektorunun inkişafına təkan vermiş, ölkə iqtisadiyyatının neft amilindən asılılığını azaltmışdır. Tədqiqata cəlb edilən 5 il ğərzində infrastruktur layihələrin reallaşdırılmasında dinamika mövcud olmuşdur.

## 5. Xarici investisiya qoyuluşlarının əsas istiqamətləri və proqnozlaşdırılması.

İnvestisiya qoyuluşlarının və onlardan səmərəli istifadə olunmasının iqtisadi sistemlərinin inkişafında müstəsna əhəmiyyətini nəzərə alaraq, investisiya qoyuluşlarının düzgün proqnozlaşdırılmasına xüsusi önəm verilir. Proqnozlaşdırma nəinki investisiya qoyuluşlarının səmərəliliyinin artırılması yollarının tapılmasının və habelə investisiyanın idarə olunmasının mühüm elementlərindən biridir. Xarici investisiya qoyuluşlarının proqnozlaşdırılmasın köməyi ilə bu fəaliyyət növünün maliyyə-iqtisadi göstəriciləri əsasında onun perspektivlərini, inkişaf istiqamətlərini və həmçinin əsas məqsədlərinin həyata keçirilməsi vasitələrinin

əvvəlcədən müəyyən etmək mümkün olur.

Aparılan təhlil və tədqiqatlar göstərir ki, proqnozların tərtib olunması dünya təcrübəsində qəbul edilən mütərəqqi üsuldur. Eyni zamanda bu üsul istənilən fəaliyyət növü üçün həm faydalı, həm də perspektivlidir. Eyni zamanda əldə edilən nəticələr göstərir ki, xarici investisiya qoyuluşları üzrə proqnozların tərtib edilməsi zamanı nəzərə alınmalı çoxsaylı amillər vardır ki, onlara aşağıdakıları aid etmək olar: investisiyaların yaranma mənbələri; ölkədəki makroiqtisadi vəziyyət; investisiya fəaliyyətinin normativ-hüquqi təminatının səviyyəsi; layihənin səmərəlilik səviyyəsi; layihənin reallaşdırıldığı sahənin inkişaf perspektivləri; tərəfdaşın etibarlıq səviyyəsi; iqtisadi strukturun likvidlik səviyyəsi; strukturda menecmentin təşkili səviyyəsi; investisiya qoyulan strukturda aktivlər portfelindən istifadə səviyyəsi və s.

Qeyd edilən amillərin müsbət nəticəli olması üçün investisiya fəaliyyətinin reallaşdırılmasına nəzarət də vacib şərtlərdəndir ki, bu da proqnozlaşdırma zamanı nəzərə alınmalıdır.

Ümumi halda proqnozlaşdırma üçün çoxsaylı riyazi-iqtisadi hesablama formulalarından istifadə edilsə də, milli iqtisadiyyata xarici investisiyaların yönəldilməsinə dair dissertasiyada konkret statistik hesablama metodlarından istifadə edilir.

Azərbaycan iqtisadiyyatına xarici investisiya qoyuluşlarının dinamikasının təhlili göstərir ki, son dörd il ərzində hər il artımla müşahidə edilən dinamika mövcud olmuşdur. Bu dinamika həm cəmi investisiya qoyuluşları üzrə, həm də onun strukturuna daxil olan maliyyə kreditləri, neft sənayesi kreditləri və neft bonusları, birgə müəssisələr və xarici şirkətlər üzrə də müşahidə olunmuşdur.

Aparılan təhlillər nəticəsində son 4 il ərzində ölkə iqtisadiyyatına qoyulan xarici investisiyaların həm illik artım məbləği, həm də illik artım faizi müəyyənləşmişdir. Onların əsasında yaxın beş il üçün ölkə iqtisadiyyatına qoyulacaq xarici investisiyaların proqnozunu tərtib edə bilərik. Bunun üçün 2014-cü il göstəricisi baza ili olaraq götürülmüşdür (cədvəl 3).

Əgər qarşıdan gələn illərdə neftin qiymətlərində kəskin fərqlər əmələ gəlməzsə və ölkədə pul siyasəti sahəsndə ciddi

dəyişikliklər baş verməzsə, tərəfimizdən müəyyən edilən artım templəri sabit qalarsa, bu halda proqnozlar özünü doğruldacaqdır.

Cədvəl 3

**2014-2018-ci illər ərzində Azərbaycan iqtisadiyyatına qoyulacaq xarci investisiyaların proqnozu (mln $)**

| Göstəricilər | 2014-cü il fakt | Proqnoz | | | |
|---|---|---|---|---|---|
| | | 2015 | 2016 | 2017 | 2018 |
| Cəmi xarici investisiya | 11697,7 | 13019,5 | 14490,7 | 16128,2 | 17950,6 |
| o cümlədən:<br>- maliyyə kreditləri | 1880,6 | 2027,2 | 2185,4 | 2355,8 | 2539,6 |
| - neft sənayesi | 6730,7 | 7705,85 | 8823,2 | 10102,5 | 11567,4 |
| - neft bonusu | 17,0 | 2,0 | 2,0 | 2,0 | 17,0 |
| - birgə müəssisələr və xarici şirkətlər | 1318,5 | 1555,8 | 1835,8 | 2166,3 | 2556,2 |
| - digər investisiyalar | 1750,9 | 1728,65 | 1644,3 | 1501,6 | 1270,4 |

Müəyyən etdiyimiz proqnozların doğru olması üçün icrası tələb edilən göstəricilər həddən artıq çoxdur. Lakin ən vacibləri qeyd etdiyimiz kimi dünya bazarında neftin qiymətinin dəyişməsi və ölkədə aparılan iqtisadi siyasətin prioritetləri ilə bağlıdır.

## Nəticə və təkliflər

**1**.Aparılan təhlil və tədqiqatlar göstərir ki, dünya iqtisadiyyatında qloballaşma müasir inkişafı səciyyələndirən mühüm amil kimi çıxış edir. Qloballaşmanın mühüm elementlərindən biri də ölkələr arasında geniş miqyasda aparılan investisiya əməliyyatlarıdır. Bu əməliyyatların uğurlu, səmərəli tətbiq olunması onun nəzəri aspektlərinin geniş, əhatəli surətdə öyrənilməsindən, təhlil edilməsindən, təcrübi həyatda düzgün həyata keçirilməsindən asılıdır. Xarici investisiyaların mahiyyət və məzmununun düzgün müəyyənləşdirilməsi, hər bir ölkədə investisiya bazarının milli, yerli xüsusiyyətlərinin düzgün nəzərə alınmaqla təşkil olunması ən vacib məsələlərdəndir. Bunun üçün investisiya mühiti və

rejimi əlverişli olmalı, investorlar seçdikləri fəaliyyət növünün tərəfdaş ölkələr üçün səmərəli olmasına maraq göstərməlidirlər.

**2**.Xarici investisiyalardan istifadənin mühüm elementləri həm xarici, həm də daxili amillərdən asılı olur ki, burada da əsas, üstünlük daxili amllərə aiddir. Apardığımız tədqiqat nəticəsində əldə edilən nəticələrdən biri məhz ölkədə investisiya fəaliyyətinin təşkili üçün tələb olunan mühitin müəyyənləşdirilməsidir. Həmin mühitin çoxsaylı amillərin təsiri ilə formalaşmasıdır ki, onları bir çox qruplarda birləşdirmək olar. Tərəfimizdən həmin amillər siyasi, iqtisadi, sosial və təşkilati amillər kimi qruplaşdırılmış və onların hər birinin bazarın formalaşmasındakı rolu müəyyənləşdirilmişdir. İnvestisiya mühitini formalaşdıran amillər ayrı-ayrı qruplara aid edilsə də, onların hər biri arasında elə üzvi bağlılıq vardır ki, onlardan biri olmadan digəri mövcud ola bilmir. Məhz həmin amillərin sıx bağlılığı və onların hər birinin təsiri səmərəli investisiya mühitinin formalaşmasını, bazarın davamlı fəaliyyətini şərtləndirir. Tərəfimizdən aparılan tədqiqat nəticəsində məhz həmin amillərin qarşılıqlı təsiri, biri-birindən asılılığı və ümumi investisiya bazarının formalaşmasında əhəmiyyəti müəyyənləşdirilmişdir.

**3**.Tədqiqatla Azərbaycan Respublikasında xarici investisiyaların tarixi aspektləri araşdırılmış, son 200 il ərzində bu sahədə respublikamızda baş vermiş dəyişikliklər dərindən, xronoloji olaraq öyrənilmişdir. Tədqiqatlar göstərir ki, XIX əsrin ikinci yarısından, Rusiyada bir sıra burjua islahatlarının baş tutmasından sonra yaranmış imkandan yerli, Rusiya təbəəli müxtəlif millətlərin nümayəndələri ilə yanaşı xarici kapitalistlər də Azərbaycana gəlmişlər. 1920-ci ildəki aprel çevrilişindən sonrakı sovetləşmədən sonra xarici investorların Azərbaycana yolu bağlanmışdır. Yalnız XX əsrin 90-cı illərinin əvvəllərindən, daha doğrusu, 1994-cü ildən ulu öndər Heydər Əliyevin uzaqgörənliyi nəticəsində bağlanmış «Əsrin müqaviləsi»ndən sonra ölkəmizə xarici investisiyaların yeni axını başlamışdır.

**4**.Tədqiqat nəticəsində müəyyən olunmuşdur ki, birbaşa xarici investisiyalar ölkə iqtisadiyyatında əsas rol oynayan bir çox

iqtisadi göstəricilərin birbaşa artmasına, yüksəlməsinə, dinamikasına səbəb olur. Bu, ümumi daxili məhsulun artımı, məşğulluq probleminin həll olunması, kapital axınlarının artımı nəticəsində pul dövriyyəsinin yaxşılaşması, ölkəyə xarici valyuta axınının artması və sairdir. Bu göstəricilərin dinamikası onlardan asılı olan digər iqtisadi göstəricilərin də artımına səbəb olur.

**5**. Aparılan tədqiqat nəticəsində müəyyən olunmuşdur ki, istənilən ölkədə xarici iinvestisiyalardan düzgün istifadə olunmasının ən vacib şərtlərindən biri bu fəaliyyət növünün hüquqi bazasının gücləndirilməsidir. Azərbaycan Respublikasında xarici investisiyalardan istifadə olunması, onun bütün parametrlərinin tənzimlənməsi 15 yanvar 1992-ci ildə qəbul olunmuş (fərman №57) «Xarici investsiyaların qorunması haqqında Azərbaycan Respublikasının Qanunu» əsasında həyata keçirilir. Tərəfimizdən bu qanun geniş təhlil olunmuş onun gələcəkdə uğurlu tətbiqi ilə bağlı təkliflər verilmişdir.

**6**. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, xarici investisiyaların cəlb edilməsi Azərbaycanı beynəlxalq iqtisadi münasibətlər sistemində etibarlı tərəfdaşa çevirmiş, inteqrasiya proseslərinin fəal üzvü olmaq etibarilə ölkənin geosiyasi mövqeyini möhkəmləndirmişdir. Müəyyən edilmişdir ki, Azərbaycan xarici investorların cəlb olunması üçün ölkədə münbit şərait yaratmış, onların fəaliyyətinin səmərəli nəticələnməsi üçün zəruri tədbirlər görmüşdür. Bunun nəticəsində tədqiqat aparılan illər ərzində ölkəyə xarici investisiya axını daim artmışdır.

Tədqiqatla müəyyən edilmişdir ki, xarici investisiyaların cəlb edilməsi investisiya cəlb edilən ölkənin milli iqtisadiyyatının beynəlxalq iqtisadi əməkdaşlığa qoşulması deməkdir və bu məsələ hal-hazırda çox əhəmiyyətlidir. Elə bunun nəticəsidir ki, Azərbaycan dinamik inkişaf edən iqtisadiyyata malik olmaqla dünyanın aparıcı investorlarının diqqət mərkəzindədir.

**7**.Tədqiqatla müəyyən edilmişdir ki, xarici investisiyalardan istifadənin qiymətləndirilməsi onun səmərəliliyi səviyyəsi ilə ölçülür. İnvestisiya layihəsinin büdcə səmərəliliyi layihənin büdcələrin gəlir və xərclərinə təsir nəticəsi kimi hesablanır. Büdcə

səmərəsi o deməkdir ki, layihə həyata keçirildikdə onun nəticəsində əldə edilən vəsait həmin layihənin həyata keçirilməsi üçün çəkilən xərcləri üstələsin.

İnvestisiya layihəsinin iqtisadi səmərəliliyi dedikdə layihənin həyata keçirilməsi ilə əlaqədar iştirakçıların birbaşa maliyyə maraqlarında nəzərdə tutulan ölçülərdən kənara çıxan və dəyər dəyişikliklərini nəzərdə tutan əlavə məsrəflərə qənaət edilməsi başa düşülür. Belə məsrəflər iştirakçılar tərəfindən həyata keçirilir. Onlara ilkin (kapitalyaratma investisiyaları), cari və ləğvetmə məsrəfləri aid edilir. Tərəfimizdən aparılan tədqiqat nəticəsində ölkədə həyata keçirilən xarici investisiya layihələrinin səmərəliliyi təhlil olunmuş, ölkə iqtisadiyyatına veridiyi səmərə müəyyən edilmişdir.

**8**.Tədqiqatla müəyyən edilmişdir ki, hal-hazırda xarici investisiya qoyuluşlarının reallaşdırılmasının prioritet istiqamətləri və mütərəqqi meyilləri, eyni zamanda onu doğuran xeyli sayda səbəbləri vardır. Hal-hazırda xarici investisiyalardan istifadə nəticəsində yaranan mühüm meyillərdən biri də bu növ investisiya qoyuluşları ilə məşğul olan transmilli şirkətlərin, korporasiyaların yaranmasıdır. Transmilli korporasiyaların yaradılması və onun vasitəsilə dünya enerji bazarına çıxışının təmin edilməsi həm ölkənin geosiyasi əhəmiyyətini artırır, həm də onun özünün geosiyasi mövqeyini möhkəmləndirərək xaricdən asılılığını azaldır.

**9**.Tədqiqat nəticəsində sübut edilən mühüm məsələlərdən biri də xarici investisiya qoyuluşlarının iqtisadi sistemlərin inkişafındakı rolunun artırılması, onlardan səmərəli istifadə olunması üçün investisiya qoyuluşlarının düzgün proqnozlaşdırılmasıdır. Proqnozlaşma xarici investisiyanın idarə olunmasının mühüm elementlərindən biri olmaqla bu fəaliyyət növünün maliyyə iqtisadi göstəriciləri üzrə gələcək perspektivlərinin əvvəlcədən müəyyən edilməsinə, inkişaf istiqamətlərinin və həmçinin əsas məqsədlərinin həyata keçirilməsi vasitələrinin müəyyən edilməsinə kömək edir.

Aparılan təhlil və tədqiqatlar göstərir ki, proqnozların tərtib olunması dünya təcrübəsində qəbul edilən mütərəqqi üsul olmaqla yanaşı bu üsul istənilən fəaliyyət növü üçün həm faydalı, həm də perspektivlidir.

**Dissertasiyanın əsas elmi nəticələrinə dair aşağıdakı əsərlər çap olunmuşdur:**

1. Bağırov F.D. "Azərbaycanın büdcə sistemi və büdcələrarası münasibətlərin təkmilləşdirilməsi istiqamətləri". "Qlobal maliyyə və dövlət idarəetmə sistemində antiböhran siyasəti: dünya təcrübəsi və Azərbaycan modeli" mövzusunda Beynəlxalq Elmi Praktiki Konfransı. Bakı -2010, s. 368-370

2. Bağırov F.D. "Xarici investisiyaların milli iqtisadiyyatda rolu". Doktorant və gənc tədqiqatçıların XVIII Respublika Elmi konfransı. Bakı – 2013, s.398-400

3. Bağırov F.D. "Bank Fəaliyyətində Risklərin idarə olunması problemləri". Doktorant və gənc tədqiqatçıların XIX Respublika Elmi konfransı. Bakı – 2015, s.19-23

4. Bağırov F.D "İnvestisiya anlayışı və mahiyyəti". "Kooperasiya" elmi-praktiki jurnal, №3(38), Bakı – 2015, s.120-126

5. Bağırov F.D "Xarici investisiyalardan səmərəli istifadənin prioritetləri". Azərbaycanın aqrar elmi jurnalı, №3 (238), Bakı – 2015, s.159-163

6. Багиров Ф.Д. «Роль рынка ценных бумаг в инвестиционном процессе: анализ и оценка». Вестник «Экономической интеграции» научной-практический журнал, №3-4(84-85), Москва, 2015, с.34-37

7. Багиров Ф.Д. «Влияние иностранных капиталовложений на развитие нефтяной промышленности Азербайджана». //Вестник Полоцково Государственного Университета, сер.D, Экон. и юрид. Науки, 2015, с. 51-54.

8. Багиров Ф.Д. «Пути улучшения инвестиционной среды в экономике Азербайджана» «Инвестиции: Практика та Досвыд – Науково–практичный журнал, №20, Киев, 2015, с. 96-101.

9. Bağırov F.D. "Azərbaycanda xarici investisiyalardan istifadənin tarixi aspektləri". AMEA-nın xəbərləri – İqtisadiyyat seriyası, elmi-praktiki jurnal, Bakı, 2015 (2), s.75-81

10. Bağırov F.D "İnvestisiyaların mahiyyəti və tədqiqinin nəzəri-metodoloji əsasları". Maliyyə uçot jurnalı, №10, Bakı – 2015., s. 55-60

**Багиров Фирдовси Дамет оглы**

## Формирование и оценка эффективности иностранных инвестиций в Азербайджане

## РЕЗЮМЕ

В диссертации исследованы основные параметры формирования иностранных инвестиций в стране и осуществлена оценка рациональности их использования.

Во вводной части исследования обоснована актуальность исследуемой темы, исследован уровень изученности проблемы, определены цели и задачи, доказана теоретическая и практическая значимость достигнутых научных нововведений.

В I главе исследования, названной «Концептуальные основы формирования иностранных инвестиций», раскрывается значимость инвестиций, анализируются теоретико-методологические основы проблемы. Далее глубоко изучаются исторические аспекты иностранных инвестиций в Азербайджане. Анализируется мировая практика использования иностранных инвестиций, и исследуются возможности ее использования в Азербайджане.

Во II главе исследования проанализировано современное положение иностранных инвестиционных вложений и проведена оценка их эффективности. Также оценена эффективность использования иностранных инвестиций на основе показателей периода, охватывающего 1995-2014 гг. Проанализирована нормативно-правовая база использования иностранных инвестиций, внесены предложения в направлении ее усовершенствования.

III глава исследования называется «Приоритетные направления использования иностранных инвестиций и его прогнозирование». В результате исследования в данной главе определены приоритетные направления рационального использования инвестиций, основные направления регулирования инвестиционных вложений и составлены прогнозы на ближайшее будущее.

**Baghirov Firdovsi Damat**

## Formation of foreign investments and estimation of its rationality

### Summary

Main parameters of formation of foreign invests in our country were explored and estimation of the usage rationality of them in the dissertation.

In introduction of the research, the actuality of researched subject were grounded, the learning level of the problem were explored, the aims and duties were determined, theoretical and experiential importance of the scientific innovations were proved.

In I chapter of research "The conceptual bases of formation of foreign invests" the point of invests were unveiled, theoretical-methodological bases of the problem were analysed. Later the historical aspects of foreign invests usage were investigated. World experience of foreign investment usage was analysed and its availability in Azerbaijan was explored.

In II chapter of research the modern status of foreign investments were analysed, its estimation on the basis of modern parameters was carried out. The rationality of foreign investment usage was estimated on the indications of 1995-2014. Normative-legal base of foreign investment usage was analysed, it was proposed in the direction of improvement.

III chapter of research is "Priority directions of foreign investment usage and its forecasting". Priority directions of effective usage of foreign investment as a result of research, main directions of adjustments of investments were determined and forecasts for near future were compiled.

Formatı 60x84 $_{1/16}$. Sayı 100. Sifariş 183.
Həcmi 2 ç.v. Ofset kağızı №1.

"Təhsil işçisi mətbəəsi" MMC-də
hazır diopozitivlərdən istifadə olunmaqla çap edilmişdir.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ**
**ЭКОНОМИЧЕСКИЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**БАГИРОВ ФИРДОВСИ ДАМЕТ ОГЛЫ**

# ФОРМИРОВАНИЕ И ОЦЕНКА ЭФФЕКТИВНОСТИ ИНОСТРАННЫХ ИНВЕСТИЦИЙ В АЗЕРБАЙДЖАНЕ

**Специальность:** 5301.01 – Внутренняя фискальная политика
и государственные финансы

## АВТОРЕФЕРАТ

на соискание ученой степени
доктора философии по экономике

**БАКУ – 2015**